**19.12.2023: xəbər**

**INFOTOUR in Nakhchivan**

Isakhan Isakhanli, Khazar University's vice-rector for Administration and Student Affairs, along with Zulfiyya Sadigova, the head of the Department of Music and Arts, participated in the INFOTOUR held in Nakhchivan on December 13.

INFOTOUR aimed to engage entrepreneurs in advocating for the establishment of private educational institutions within the framework of the "State Program for the Socio-Economic Development of the Nakhchivan Autonomous Republic for 2023-2027."

Officials from the Nakhchivan Autonomous Republic - Deputy Prime Minister of the Nakhchivan Autonomous Republic, Acting Minister of Education, Acting Minister of Economy, Acting Minister of Finance and other officials and guests, as well as representatives from private educational institutions in Baku and various organizations related to education, attended the INFOTOUR opening.

Event speakers highlighted that entrepreneurs desiring to establish private educational institutions in the Nakhchivan Autonomous Republic would receive comprehensive support and conditions from official bodies.

Entrepreneurs presented their ideas and proposals, with officials addressing their queries and providing answers.

Isakhan Isakhanli shared information about Khazar University and "Dunya" school, expressing the school's interest in operating in Nakhchivan and discussing issues such as building allocation, construction permission, and favorable credit terms. Acting Minister of Education, Deputy Minister Elkhan Najafov expressed his opinion on these matters and noted the possibility and importance of exchanging views with relevant organizations on this issue.

INFOTOUR participants enjoyed an excursion to Ashabi-kahf Sanctuary, Batabat Lake, and the Duzdag Physiotherapy Center.

**Naxçıvanda İNFOTUR**

Xəzər Universitetinin İdarəetmə və tələbə işləri üzrə prorektoru İsaxan İsaxanlı və Musiqi və incəsənət departamentinin müdiri Zülfiyyə Sadıqova dekabrın 13-də Naxçıvanda keçirilən İNFOTUR-da iştirak etdilər.

İNFOTUR "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" çərçivəsində özəl təhsil müəssisələrinin yaradılması üçün sahibkarlar arasında təşviqat işlərinin aparılması məqsədilə keçirilirdi.

İNFOTUR-un açılışında Naxçıvan Muxtar Respublikasının rəhbər şəxsləri - Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini, təhsil naziri vəzifələrini icra edən, iqtisadiyyat naziri vəzifələrini icra edən, maliyyə naziri vəzifələrini icra edən və digər rəsmi şəxslər və qonaqlar, eləcə də Bakıda fəaliyyət göstərən bir sıra özəl təhsil müəssisələrinin və təhsillə bağlı müxtəlif təşkilatların nümayəndələri iştirak edirdilər.

Tədbirdə çıxış edən rəsmi şəxslər Naxçıvan Muxtar Respublikasında özəl təhsil müəssisələri açmaq istəyən sahibkarlara hərtərəfli şəraitin yaradılacağını və onlara rəsmi orqanlar tərəfindən hər cür dəstək göstəriləcəyini qeyd etdilər.

Sonra sahibkarların fikir və təklifləri dinlənildi, onları maraqlandıran suallar cavablandırıldı.

Tədbirdə Xəzər Universitetinin İdarəetmə və tələbə işləri üzrə prorektoru İsaxan İsaxanlı çıxış edərək, Xəzər Universiteti və "Dünya" məktəbi haqqında məlumat verdi, "Dünya" məktəbinin Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərmək arzusunu dilə gətirdi və bu istiqamətdə tədris üçün bina və ya uyğun torpaq sahəsinin ayrılması, tikintiyə icazə və uyğun şərtlərlə kredit verilməsi kimi məsələlərin vacibliyindən danışdı. Qaldırılan bu məsələlər ətrafında təhsil naziri vəzifələrini icra edən, nazir müavini Elxan Nəcəfov fikrini bildirdi, məsələ ilə bağlı uyğun təşkilatlarla fikir mübadiləsi aparılmasının mümkünlüyünü və vacibliyini qeyd etdi.

